# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

25 avqust 2018-ci il

Şənbə

№ 33 (3397)

www.mk.mia.gov.az

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

***Hörmətli həmvətənlər!***

***Sizi dünya müsəlmanlarının mənəvi birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, xalqımıza və Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza ən səmimi arzu və diləklərimi yetirirəm.***

***Qurban mərasimi Uca Yaradana məhəbbət və itaət, yüksək mənəvi-əxlaqi dəyərlərə hörmət, hər bir bəşər övladına mərhəmət və dözümlülük təlqin edən İslam dininin insanlar üçün hidayət yolu seçilməsi ilə əlamətdardır. Bu mübarək bayram bütün dünya müsəlmanlarının mənəvi-ruhi birliyini, əməli-saleh insanların Tanrı sevgisini və haqq-ədalət naminə hər cür fədakarlığa hazır olmalarını təcəssüm etdirir.***

***Mütərəqqi islami dəyərlərə bağlılığı ilə seçilən Azərbaycan xalqı əsrlər boyu, hətta ən mürəkkəb dövrlərdə Qurban bayramını özünün əziz günlərindən biri kimi qoruyub saxlamışdır. Hazırda minlərlə həmvətənimizin də aralarında olduğu milyonlarla müsəlman müqəddəs Həcc ziyarətində möhtəşəm həmrəylik nümayiş etdirərək, Uca Yaradana şükranlarını bildirir, ölkəmizdə və dünyada sülhün, əmin-amanlığın bərqərar olması üçün dualar edirlər.***

***Bayram günləri müsəlmanlarımız Allah və din yolunda öz müqəddəs borcunu yerinə yetirir, qurbanlar kəsilir, imkansızlara və ehtiyacı olanlara yardımlar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, hər belə bayram cəmiyyətimizdə xeyirxahlığın, birlik və bərabərliyin, Vətənə və milli dövlətçiliyə sədaqətin təntənəsinə çevrilir.***

***İnanıram ki, bu mübarək bayram müstəqil Azərbaycan Respublikasının tərəqqisi naminə xalqımızın qəhrəmanlıq və fədakarlıq qüdrətini artıracaq, ölkəmizdə vətəndaş sülhünü və milli-mənəvi həmrəyliyi daha da gücləndirəcəkdir.***

***Əziz bacı və qardaşlarım!***

***Kəsdiyiniz qurbanların Allah tərəfindən qəbul olunması arzusu ilə bir daha hər birinizə möhkəm cansağlığı, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.***

***Qurban bayramınız mübarək olsun!***

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 20 avqust 2018-ci il.*

**Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 24-də Bakının Xətai rayonunda Yusif Səfərov, Ələddin Quliyev və Sergey Senyuşkin küçələrinin əhatə etdiyi ərazidə salınan idman-əyləncə park kompleksinin açılışında iştirak ediblər.**

**Ətraflı gələn sayımızda.**

# HƏR ŞEY İNSANIMIZIN RİFAHI ÜÇÜNDÜR



Ölkə əhalisinin məşğulluq probleminin həlli Azərbaycan dövlətinin ən çox önəm verdiyi məsələlərdən biridir. Hər il minlərlə iş yeri açılır, insanlar iqtisadiyyatın bütün sahələrində-istər dövlət, istərsə də özəl sektorda işlə təmin olunurlar.

Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu məsələ barədə ətraflı bəhs edilmişdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev nitqində demişdir: "Əlbəttə ki, ağır vəziyyətdə yaşayan, hələ də işsiz olan vətəndaşlar üçün biz geniş şərait yaratmalıyıq. Azərbaycanda iş yerlərinin yaradılması prosesi daim aparılmalıdır... 58 min yeni daimi iş yeri açılmışdır. Ancaq eyni zamanda, 20 mindən çox iş yeri bağlanmışdır. Əgər bu rəqəmlərə baxsaq, görərik ki, yenə də dinamika müsbətdir. Ancaq bağlanmış iş yerlərinin təhlili aparılmalıdır. Hansı səbəblərə görə bu iş yerləri bağlanıb və o iş yerlərini itirən vətəndaşlar hansı işlərlə təmin olunub və olunubmu, yoxsa yox?"

Bu il iyulun 1-nə olan məlumata görə, ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 108 min 900 nəfər olub. Onlardan 4 milyon 856 min 500 nəfərini məşğul əhali təşkil edib. Məşğulluq xidməti orqanları tərəfindən rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 36,6 min nəfər olub. Bu insanların bir çoxu özünüməşğulluq proqramından bəhrələnə bilər və söz yox ki, bəhrələnəcəklər.

Regionların sosial-iqtisadi inkişafına istiqamətlənmiş Üçüncü Dövlət proqramının icrasına başlandığı 1 yanvar 2014-cü ildən bu ilin əvvəlinədək ölkədə 530,4 mini daimi olmaqla 721,2 min yeni iş yeri açılıb. Keçən il isə ümumilikdə 281,4 min yeni iş yeri açılıb ki, bunların da 179,3 mini daimidir.

Yeni iş yerləri ölkə iqtisadiyyatının bütün sahələrini əhatə edir. Yeni yaradılan müəssisələrdə, xidmət sahəsində çoxsaylı iş yerləri açılır.

İnşaat sektorundakı canlanma da iş yerlərinin yaradılması deməkdir. Məsələn, hazırda Bakıda və regionlarda onlarca hündürmərtəbəli ev tikilir və burada minlərlə yeni iş yerləri yaradılır. Paytaxtda, ölkənin digər iri şəhərlərində və bölgələrində açılan yeni sənaye parklarında və məhəllələrində, ayrı-ayrı sahələri əhatə edən müəssisələrdə yüzlərlə şəxs özünə iş yeri tapır.

Aqrar sektorda bir sıra unudulmuş, tənəzzülə uğramış sahələrin dirçəldilməsi, onlara keçmiş şöhrətinin qaytarılması isə kənd sakinlərinə çoxsaylı yeni iş yerləri bəxş edib. Pambıqçılıq, üzümçülük, tütünçülük, baramaçılıq və digər sahələrdə indi çoxlu sayda insan çalışır.

Qeyri-neft sektorunun aparıcı sahəsi olan kənd təsərrüfatında özünüməşğulluğun inkişafı üçün geniş imkanlar var. Bütün istiqamətlərdə aqrar sahənin qarşısında yeni üfüqlər açılıb. Həqiqətən də kənd yerlərində bir çoxları ailələri ilə birlikdə heyvandarlıqla, arıçılıqla, bağçılıqla, tərəvəzçiliklə, tütünçülüklə məşğul olurlar. Dövlətin onlara maddi dəstək göstərməsi çox yerinə düşür. Başqa sözlə, özünüməşğulluğa diqqətin artırılması bu insanlara öz fəaliyyətlərini genişləndirmək üçün münasib şərait yaradır.

Azərbaycanda turizm və bu çoxşaxəli sektorla bağlı ən müxtəlif sahələr sürətlə inkişaf edir. Həm də az qala ayrıca bir sənaye sahəsinə çevrilən, yüksək gəlirli turizm sektoru qışda da, yayda da eyni dinamik inkişaf yoluna çıxıb. Bu isə yeni-yeni iş yerləri, həm də bölgələrin inkişafı, ümumilikdə xalqımızın maddi rifahının güclənməsinə təkan verən perspektivli səbəb və şərtlərdəndir.

Ölkəmizin rəhbəri dolanışığını özünüməşğulluqla təmin edən insanlara ilk mərhələdə dövlətin kömək göstərəcəyini bəyan etmişdir. Həmin iclasda dövlət başçısı yenidən bu məsələyə qayıdaraq demişdir: "Bizim özünüməşğulluq proqramına böyük ümidimiz var. Bu proqram həm iqtisadi inkişafımıza təkan verəcək, xüsusilə regionlarda həm məşğulluq probleminin həllini sürətləndirəcək, eyni zamanda, bəzi vətəndaşlarımızı ələbaxımlıq vərdişindən çəkindirəcək. Özünüməşğulluq proqramını icra etmək üçün indi kifayət qədər vəsait var. Hesab edirəm ki, hər il 6-7 min insan bu proqrama cəlb olunarsa, bir neçə ildən sonra heç sosial yardıma da ehtiyac qalmayacaq və insanlar öz halal zəhmətləri ilə pul qazanacaqlar, ailələrini saxlayacaqlar və ölkə iqtisadiyyatına töhfələrini verəcəklər".

**Ölkəmizin rəhbəri avqustun 16-da Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Avqustun 16-da Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ rayonunun Sanqaçal-Çeyildağ avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Avqustun 16-da dövlətimizin başçısı milli bayram – Müstəqillik Günü münasibətilə Əfqanıstan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Məhəmməd Əşrəf Qaniyə təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Avqustun 17-də ölkəmizin rəhbəri Lənkəran rayonunun Hirkan-Daştatük-Biləsər avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev avqustun 18-də Türkiyənin aparıcı siyasi qüvvəsi olan Ədalət və İnkişaf Partiyasının Sədri vəzifəsinə yenidən seçilməsi münasibətilə Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı İlham Əliyev avqustun 18-də Lerik rayonunun Piran-Hamarat-Vıjaker avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri avqustun 18-də Birləşmiş Millətlər Təşkilatının 7-ci Baş katibi, görkəmli siyasi xadim Kofi Annanın vəfatı ilə əlaqədar Baş katib zati-aliləri cənab Antonio Quterreşə başsağlığı teleqramı göndərib.**

❖❖❖❖❖

***Avqustun 18-də Azərbaycan Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri vəzifəsinə seçilməsi münasibətilə zati-aliləri cənab İmran Xana təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Avqustun 20-də dövlətimizin başçısı Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Avqustun 20-də ölkəmizin rəhbəri Cəlilabad rayonunun Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi (143 km) - Maşlıq - Muğan - Söyüdlü - Kazımabad-Göytəpə - Privolnoye - Ağdaş - Soyuqbulaq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev avqustun 20-də Qusar rayonunun Köhnə Xudat-Həzrə avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı avqustun 20-də baş vermiş irimiqyaslı daşqınlar nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Hindistan Respublikasının Prezidenti zati-aliləri cənab Ram Nat Kovində başsağlığı teleqramı göndərib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri avqustun 21-də Ukraynanın milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Petro Poroşenkoya təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Avqustun 23-də Azərbaycan Prezidenti İlham Əliyev İslandiya, Benin və Vyetnam Sosialist Respublikalarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirləri xanım Berqlind Asqeyrsdottirin, İssiradjou Gomina İbrahimin və Nqo Duk Manhın etimadnamələrini qəbul edib.***

## BÖYÜK QAYIDIŞIN ASTANASINDA...

Bu gün düşmən tapdağı altında olan Şuşamız, Xankəndimiz, Laçınımız, Ağdamımız, Füzulimiz, Qudadlımız, Zəngilanımız və Cəbrayılımız, bir sözlə, hər şəhər, hər kənd, hər qəsəbə ürəyimizin bir parçasıdır.

Azərbaycanın qədim yurd yerlərindən olan Füzuli rayonunun Ermənistan tərəfindən işğalından 25 il ötür...

*Bax səh.3.*

## ONLAR AZƏRBAYCANI SEÇİRLƏR...

Ölkəmizə səfər edən əcnəbi turistlərin sayında ötən ilin iyul ayına nisbətdə 5,2 faiz, yanvar-iyul aralığına olan nisbətdə isə 9, 3 faiz artım müşahidə olunub.

Dövlət Turizm Agentliyindən bildirilir ki, bu ilin iyul ayında Azərbaycana səfər edən əcnəbilərin sayı ötən ilin eyni ayı ilə müqayisədə 5,3 faiz artaraq 330 minə çatıb. Əcnəbilərin təqribən üçdə bir hissəsini (119 min nəfər) Rusiya vətəndaşları təşkil edir. Digər 20 faiz və 15 faiz əcnəbilər isə Yaxın Şərq ölkələri və Gürcüstanın payına düşür...

Avqustun 23-də Daxili İşlər Nazirliyində bu il Polis Akademiyasının əyani şöbəsini bitirmiş məzunların paytaxtın polis orqanlarında orta rəis heyəti vəzifələrinə təyin olunmalarına həsr olunmuş tədbir keçirilib...

*Bax səh.2.*

# RESPUBLİKA BAŞ PROKURORLUĞU, DAXİLİ İŞLƏR NAZİRLİYİ VƏ DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİ MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Xəbər verildiyi kimi, 2018-ci il iyul ayının 3-də Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə və polis əməkdaşı Qasım Aşbazova qarşı məqsədyönlü şəkildə əvvəlcədən planlaşdırılmış terror aktı, iyulun 10-da isə Gəncə şəhərində kütləvi iğtişaş törətməklə həmin terror aktını dəstəkləyən radikal dini yönümlü bir qrup şəxsin xidməti vəzifələrini yerinə yetirən iki polis əməkdaşına zor tətbiq etməklə qətlə yetirməsi və sair faktlar üzrə cinayət işi başlanılaraq istintaq aparılır.

Davam etdirilən prosessual araşdırmalar və əməliyyat-axtarış tədbirləri ilə müəyyən edilmişdir ki, iyul ayının 3-də törədilmiş cinayətin icraçısı, hazırda həbsdə olan Yunis Səfərov yaxın münasibətdə olduğu Eldar Orucov, Azər Əliyev, Mahir Əzizov ilə birlikdə Azərbaycanda şəriət qaydaları ilə idarə edilən dövlət qurmaq niyyəti ilə hökumət orqanlarına qarşı partizan müharibəsi aparmaq qərarına gəlmişlər. Bu məqsədlə onlar 2012-ci ildə xarici ölkələrdən birində döyüş təlimi keçmiş və həmin ilin yaz aylarında Gəncə şəhərinə gələrək şəhər sakini, hazırda həbsdə olan Hamlet Abdullayevdən 1 ədəd «Kalaşnikov» markalı avtomat silah və 1 ədəd «Makarov» markalı tapança almışlar. Lakin həmin dövrdə planlaşdırdıqları cinayətkar əməllər baş tutmadığından silahları Hamlet Abdullayevə qaytarıb ölkəni tərk etmişlər.

Dini radikalizmə meylli Hamlet Abdullayev həmin silahları və «Marqulin» markalı daha 1 ədəd tapançanı onunla eyni radikal dini baxışları bölüşən və 2018-ci il iyulun 21-də keçirilmiş xüsusi əməliyyat zamanı silahlı müqavimət göstərdiyinə görə məhv edilmiş Anar Bağırovla birgə Gəncə şəhər sakini Pərviz Bayramovdan və 2015-ci ildə avtomobil qəzasında ölmüş Məhəmməd Əzizovdan 500 manata almışdır.

Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı terror aktı törətməkdə təqsirləndirilən Yunis Səfərov həmin silahları müvəqqəti qaytardıqdan sonra Hamlet Abdullayev «Makarov» tapançasını pul müqabilində Pərviz Bayramova və «Kalaşnikov» avtomatını dayısı, Gəncə şəhər sakini Aydın Qurbanova vermiş, «Marqulin» markalı tapança isə Anar Bağırovda qalmışdır.

Aydın Qurbanovun və Anar Bağırovun gizlətdikləri silahların və sursatın yerinin müəyyən edilməsi məqsədilə onların Gəncə şəhərində qeydiyyatda olduqları ünvanlarda axtarış aparılmışdır. Nəticədə Aydın Qurbanovun yaşadığı binanın çardağından «Kalaşnikov» avtomatı, ona aid 56 ədəd patron və 1 ədəd sandıqça, Anar Bağırovun yaşadığı binanın zirzəmisindən «Marqulin» markalı tapança, ona aid 47 ədəd patron, 132 ədəd avtomat patronu, «Teksun» yağ qabının içində gizlədilmiş daha 273 ədəd avtomat və tapança patronu, 8 ədəd sandıqça, habelə mənzilindən radikal dini məzmunlu materiallar olan və faşizmi təbliğ edən 36 ədəd kompakt disk aşkar edilərək götürülmüşdür.

Aydın Qurbanov və Pərviz Bayramov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.3-cü (mütəşəkkil cinayətkar dəstə tərəfindən qanunsuz olaraq odlu silah, döyüş sursatı əldə etmə, başqasına vermə, satma, saxlama, gəzdirmə, daşıma) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilmişdir.

Müvafiq cinayət işi üzrə istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri intensiv surətdə davam etdirilir.

*17 avqust 2018-ci il.*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Avqustun 23-də Daxili İşlər Nazirliyində bu il Polis Akademiyasının əyani şöbəsini bitirmiş məzunların paytaxtın polis orqanlarında orta rəis heyəti vəzifələrinə təyin olunmalarına həsr olunmuş tədbir keçirilib.**



Nazir, general-polkovnik Ramil Usubov iştirakçıları əlamətdar hadisə-zabit rütbələrinə layiq görülmələri, özlərinə çox şərəfli peşə və həyat yolu seçmələri münasibətilə təbrik edərək təyinatın şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini, son illər bu praktikadan geniş istifadə olunduğunu xatırladıb.

Daxili işlər naziri ölkə rəhbərliyinin gənclərə hər zaman diqqət və qayğı göstərdiyini, yüksək mənəvi, iş keyfiyyətlərinə malik bacarıqlı, istedadlı gənclərin dövlət idarəçiliyində, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün zəruri addımların atıldığını, hazırkı tədbirin də bunun bariz nümunəsi olduğunu vurğulayıb.

Cənab Ramil Usubov Baş Kadrlar İdarəsinin rəhbərliyinə təyinatın məzunların istək və arzuları, hazırda yaşadıqları yerlər nəzərə alınmaqla həyata keçirilməsinə dair tapşırıq verdiyini, püşkatmada iştirak edən bütün əməkdaşların müvafiq əmrlərlə zabit vəzifələrinə təyin olunacaqlarını diqqətə çatdırıb.

İştirakçılara nazirliyə 34 iddiaçının dəvət edildiyi bildirilib və namizədlərin siyahısı elan edilib. Daha sonra gənc zabitlər orta rəis heyətinə aid müxtəlif vəzifələrin qeyd edildiyi xüsusi zərfləri çəkiblər.

Tədbirə yekun vuran daxili işlər naziri gəncləri şərəfli olduğu qədər yüksək məsuliyyət, işgüzarlıq, mükəmməl nəzəri bilik və praktik bacarıq tələb edən orta rəis heyəti vəzifələrinə təyin olunmaları münasibətilə bir daha təbrik edib, konkret tapşırıq və tövsiyələrini verib.



O, xüsusilə qeyd edib ki, ulu öndər Heydər Əliyevin müəllifi olduğu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilən cinayətkarlıqla qətiyyətli mübarizə, ölkəmizdə sabitliyin dönməzliyinin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi qorunması kursu daxili işlər orqanlarının da üzərinə böyük və məsul vəzifələr qoyur.

Nazir vətəndaşlara xidmətin şərəfli bir vəzifə olduğunu, cəmiyyət həyatının bütün sahələrində müşahidə edilən hərtərəfli inkişafın əsasında xalq-iqtidar birliyinin, möhtərəm Prezidentimizin rəhbərliyi ilə respublikamızda uğurla həyata keçirilən hüquq-mühafizə siyasətinin, sabitlik, əmin-amanlıq amilinin dayandığını, bu istiqamətdə əldə olunmuş uğurların dövlətimizin başçısı tərəfindən hər zaman yüksək qiymətləndirildiyini nəzərə çatdırıb.

Daxili işlər naziri Ramil Usubov gənc zabitlərə çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, polis adını uca tutmalarını, öz üzərlərində işləyərək bilik və təcrübələrini, peşəkarlıqlarını daim artırmalarını, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini, nizam - intizama, "Daxili işlər orqanları əməkdaşlarının etik-davranış Kodeksi"nin tələblərinə ciddi riayət etmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, onlarla ünsiyyətdə, rəftarda hər zaman yüksək mədəniyyət və təmkinlik nümayiş etdirmələrini, ədalətli, obyektiv və dürüst olmalarını, Polis Akademiyasında alınmış mükəmməl nəzəri biliklərin və praktik vərdişlərin xidməti fəaliyyətdə səmərəli təbiqini, idarəçiliyi öyrənmələrini tövsiyə edib.

Nazir əmin olduğunu bildirib ki, gənc zabitlər bu yöndə səylərini əsirgəməyəcək, dövlətçiliyə, anda, Vətənə sədaqətlə xidmət edəcək, göstərilmiş etimadı layiqincə doğruldacaqlar.

*23 avqust 2018-ci il.*

# ONLAR AZƏRBAYCANI SEÇİRLƏR...

**Ölkəmizə səfər edən əcnəbi turistlərin sayında ötən ilin iyul ayına nisbətdə 5,2 faiz, yanvar-iyul aralığına olan nisbətdə isə 9, 3 faiz artım müşahidə olunub.**

Dövlət Turizm Agentliyindən bildirilir ki, bu ilin iyul ayında Azərbaycana səfər edən əcnəbilərin sayı ötən ilin eyni ayı ilə müqayisədə 5,3 faiz artaraq 330 minə çatıb. Əcnəbilərin təqribən üçdə bir hissəsini (119 min nəfər) Rusiya vətəndaşları təşkil edir. Digər 20 faiz və 15 faiz əcnəbilər isə Yaxın Şərq ölkələri və Gürcüstanın payına düşür. Ümumən götürdükdə, qeyd edilən ölkələrdən gələnlər Azərbaycana səfər etmiş xarici əcnəbilərin 70 faizini təşkil edir.

Yaxın Şərq bölgəsindən səfər edən əcnəbilərin sayında ötən ay ilə müqayisədə 30 faiz artım müşahidə olunur. Bu artımın böyük hissəsini Səudiyyə Ərəbistanından gələn qonaqlar təşkil edir. Daha bir böyük artım, 63 faiz Cənubi və Şərqi Asiya bölgələrindən səyahət edənlər arasında müşahidə olunsa da, onların sayı 24 min nəfər olmaqla, ölkəmizə səfər edənlərin ümumi sayının 7 faizini təşkil edir.

Qonşu ölkələrin bəzilərində isə cüzi artım və ya cüzi azalma müşahidə olunmaqdadır. Belə ki, Rusiya və Türkiyədən gələn qonaqların sayı müvafiq olaraq 2 faiz və 1 faiz azalıb, Gürcüstandan gələnlərin sayı isə 5 faiz artıb. Digər tərəfdən, İrandan gələnlərin sayında 35 faizə qədər ciddi azalma mövcuddur.

2018-ci ilin ilk yeddi ayında Azərbaycana səfər edən səyahətçilərin sayı 1,65 milyondan çox olaraq ötən ilin analoji dövrü ilə müqayisədə 9,3 faiz artıb. Bu axının böyük hissəsi, 0,5 milyon, yəni 31, 5 faizi Rusiyadan olan səyahətçilərin payına düşür. Gürcüstan (20 faiz), Yaxın Şərq bölgəsi (13 faiz ), Türkiyə (10 faiz) və İran (10 faiz ) əcnəbi axınının digər əhəmiyyətli mənbələri sayılırlar.

Xarici ölkələrdən səfər edənlərin, xüsusilə, Gürcüstandan (9 faiz) və Yaxın Şərq bölgəsindən (54 faiz) gələnlərin sayında artım mövcuddur. Yaxın Şərq bölgəsindən səfər edənlərin (58 min nəfər) böyük bir hissəsini BƏƏ vətəndaşları təşkil edir. Lakin qeyd etmək lazımdır ki, keçən ilin iyul ayı ilə müqayisədə BƏƏ vətəndaşları arasında 3 faiz azalma müşahidə olunmaqdadır. Səudiyyə Ərəbistanından Azərbaycana 42 minə yaxın səyahətçi gəlib və bu rəqəm 2017-ci ilin göstəricisi ilə müqayisədə iki dəfədən artıq göstəricidir. İraq (25%), Küveyt (227%), Oman (17%) və İsraildən (240%) gələn ziyarətçilərin sayında da əhəmiyyətli dərəcədə inkişaf nəzərə çarpmaqdadır.

2018-ci ilin yanvar-iyul aylarında Cənubi və Şərqi Asiya ölkələrindən 112 minə yaxın səyahətçi ölkəmizə səfər edib və bu göstərici ötən ilin analoji dövrü ilə müqayisədə 57 faiz artım deməkdir. Bu bölgələrdən olan axının əsas hissəsini Qazaxıstan (5%), Pakistan (209%), Hindistan (188%) və Türkmənistandan (80%) olan səyahətçilər təşkil ediblər. İrandan səfər edənlərin sayı isə 166 min nəfər olmaqla, ötən ilin analoji dövrü ilə müqayisədə 21 faiz azalma təşkil edib. Yanvar-iyul aylarında Azərbaycana ən çox səfər etmiş səyahətçi axının inkişaf dinamikası Rusiya və Yaxın Şərq bölgəsindən səfər edənlər üçün də xarakterikdir.

Asiya bölgəsi, nəzərəçarpacaq mövsümlük olmadan sabit artım nümayiş etdirir. Türkiyə və Gürcüstandan səfər edənlərin inkişaf dinamikasında, demək olar ki, hər-hansı bir nəzərəçarpacaq mövsümi xarakter olmadan stabil temp müşahidə olunmaqdadır. İran səyahətçiləri, digər aylara nisbətdə, mart ayı ərzində 3-4 dəfə artıq göstərici nümayiş etdirib. Eyni mənzərəni 2017-ci ilin analoji dövründə də müşahidə etmək mümkündür. Buna İran vətəndaşlarının hər il mart ayında keçirilən Novruz bayramına olan maraqları səbəb ola bilər.

# "ÇEVİKLƏR" HƏM DƏ PEŞƏKARDIRLAR

**Binəqədi rayonu ərazisində axşam saatlarında bir xanımın qışqıraraq: "Evimi yardılar, qızılımı-pulumu apardılar, odur, oğru qaçır",-deməsi ilə onların şübhəli ni tutmaları, demək olar ki, bir göz qırpımında baş verdi. Qadın da, oğru da, sözün əsl mənasında, polislərin haradan, necə peyda olduqlarına məəttəl qaldılar. Polis bu dəfə də vətəndaşa təhlükədən daha yaxın olduğunu çevikliyi, operativliyi ilə sübut etdi.**

Avqustun 11-də baş vermiş oğurluq hadisəsini törədən şəxsin əvvəllər də məhkum olunmasına 7-ci Polis Bölməsində aydınlıq gətirildi. Vətəndaşın qızıl qolbağı, qızıl sırğası özünə qaytarıldı. Araşdırmalar nəticəsində məlum oldu ki, hadisəni törədən Emin Cabbarov digər bir rayon sakininin evindən 1800 manat oğurlayıbmış.



Son günlər Binəqədidə törədilən cinayətlərin açılmasında fərqlənən Əlahiddə Çevik Polis Alayı 2-ci Patrul Bölüyünün əməkdaşları ilə həmsöhbət olmaq üçün **bölük komandiri, polis polkovnik-leytenantı Firdovsi Rzayevlə** görüşdüm.

"Bura gəlməzdən öncə rayon ərazisində əməkdaşlarımızı bir xeyli müşahidə etdim. Əksəriyyətini gənclər təşkil edir. Hər biri idman cüssəli gənclərdir. Hətta onları yoxlamaq üçün gedəcəyim ünvanı yaxınlaşıb soruşanda, əvvəlcə özlərini təqdim etdilər, sonra da bizə necə yardımçı olacaqlarını bildirdilər. Polisin belə nəzakətli davranışı, səmimiyyəti, şübhəsiz ki, vətəndaş-polis münasibətlərini daha da möhkəmləndirir. Polisin andına, adına, nüfuzuna xələl gətirməyən hər bir əməkdaş dövlətçiliyimizin möhkəmlənməsinə xidmət edir, deməli, o, vətəndaş kimi də öz borcunu ləyaqətlə yerinə yetirir",- fikrimi səbirlə dinləyən bölük komandiri əldə olunan uğurların əsasında ölkə, DİN və alay rəhbərliyinin tələbkarlığının, diqqət və qayğısının durduğunu bildirdi. Qeyd etdi ki, bu gün təkcə rayon sakinləri deyil, ölkəmizə gələn turistlər də polisin xidmətindən razılıq edirlər. Burda xidmətlər arasında rabitə yüksək səviyyədə qurulub. Əməkdaşlar ən çətin işlərin öhdəsindən məharətlə gəlirlər. Bir sözlə, bölükdə təcrübəli, uzun müddət xidmət edən əməkdaşların peşəkarlığı ilə gənclərin çevikliyi uğurların sayını günbəgün artırır.



Komandirlə söhbətimiz şəxsi heyətin arasında oldu və bu nüans diqqətimdən yayınmadı. Yeri gəlmişkən, avqustun 1-də törədilmiş xuliqanlıq hadisəsinin qarşısının alınmasında iştirak edən əməkdaşı hadisəni nəql etmək üçün komandir tərəfindən yaradılan şərait bölükdə hər kəsin söz haqqı olmasından xəbər verirdi.

"Xuliqanlıq hadisəsinin qarşısını almaq elə də asan olmadı. Çünki hadisəni törədən sərxoş idi və qanuni tələblərimizə tabe olmaq istəmirdi. Müəyyən psixoloji söhbətdən sonra yola gətirib onu 5-ci Polis Bölməsinə təhvil verdik. Aparılan araşdırmalarla məlum oldu ki, həmin şəxs əvvəllər də müxtəlif cinayətlərə görə məhkum olunmuş Mirzə Alıyevdir". Bunları polis **baş serjantı Sədi Daşdəmirov** dedi.

Elə fürsəti itirməyib əməkdaşlarla da söhbətləşdik. **Polis baş serjantı Sədi Daşdəmirov** 5 ildir ki, xidmətdədir. O, atasının yolunu davam etdirir. Deyir ki, atası da vaxtilə bu bölükdə xidmət edib.

**Polis baş serjantı Teymur Məmmədov** 2003-cü ildən alayda xidmətdədir. Kifayət qədər təcrübəli əməkdaşlardan biridir. Həm də əraziyə yaxşı bələddir.

"Xidməti ərazimizdə hadisə baş verəndə çalışırıq ki, ora hamıdan tez çataq, axı biz "çeviklərik".

Bunları da bölüyün **tağım komandiri, polis baş leytenantı Sahib Alıyev** dedi.

***Polis serjantları Sənan Qəhrəmanovun, Cahid Kərimovun, Aqil Babayevin, İlham Zeynalovun, Ziyad Mədətovun, Emil Mahmudovun*** barəsində də rəis xoş təəssüratlarını bölüşdü.

***Hafiz Təmirov,***
***polis mayoru***

# MƏKTUB GƏLİB
## BU DƏFƏ ƏCNƏBİLƏRDƏN

**Ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması, yaradılan sabitlik, əmin-amanlıq şəraiti istər ölkə vətəndaşlarının, istərsə də əcnəbilərin diqqətini çəkən dəyərlərdəndir. Yaradılan bu əmin-amanlıq şəraitinə, ölkəmizin hüquq-mühafizə orqanlarının ən kiçik qanun pozuntusuna, bütün müraciətlərə anındaca diqqət yetirməsini hamı görür, hamı dəyərləndirir. Bunu hər gün ünvanımıza gələn çoxsaylı məktublar da təsdiq edir. Onların heç biri diqqətdən kənarda qalmır.**



**Hindistan vətəndaşı Antoni Sunilin** təşəkkür məktubundan: "Mən Azəbaycanda təhlükəsizili-yin təmini ilə bağlı görülən işlərdən çox məmunam".

**Dubay şəhərində yaşayan Gülara Arora** ona qarşı qanunsuz hərəkətlər edən şəxslər barədə ölkəmizin Birləşmiş Ərəb Əmirliklərindəki səfirliyi vasitəsilə etdiyi müraciətə çevik reaksiya verildiyinə və hər şeyin qanun çərçivəsində öz həllini tapdığına görə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə təşəkkürünü bildirir.

**Ukrayna vətəndaşı Tatyana Mamedova** Nəsimi RPİ-nin 22-ci Polis Bölməsi əməkdaşlarının ona göstərdiyi səmimiyyətdən və üzləşdiyi problemin həllində göstərdikləri köməklikdən razılığını bildirir və həmkarlarımıza xidmətlərində uğurlar arzulayır.

**Türkiyəli iş adamı Pertev Kasarcı** Azərbaycanda biznes qurduğu şəxslə aralarında yaranan problemlə bağlı daxili işlər orqanlarına etdiyi müraciətdən sonra aparılan araşdırma nəticəsində ona dəymiş ziyanın ödətdirilməsində, onun haqlı olduğunun aşkara çıxarılmasında göstərdikləri köməkliyə görə həmkarlarımıza minnətdarlıq edir.

**İraq Respublikasının vətəndaşları Mohammed Abbood Saleh və Falah Mehdi** ölkəmizdə əcnəbilər üçün yaradılan şəraitdən, polis və miqrasiya orqanlarının fəaliyyətindən məmnunluqlarını bildirir, 1 saylı "ASAN xidmət" mərkəzində xidmət aparan polis əməkdaşı Mircəlal Əliyevin peşəkarlığını, vətəndaşlarla nəzakətli rəftarını təşəkkür məktubunda xüsusi vurğulayırlar.

**Səudiyyə Ərəbistanı vətəndaşı Al Jeri Abdul Razaq** Bakıda turist səfərində olarkən iyunun 23-də gecə paytaxtın mərkəzi parklarından birində dincələn zaman mobil telefonunu itirdiyini, bu barədə gecə yarıdan keçmiş Səbail RPİ-nin 39-cu Polis Şöbəsinə məlumat verdiyini yazır. Məktub müəllifi səhər saat 9 radələrində Bəxtiyar və Elnur adlı polis zabitlərinin həmin telefonu taparaq ona qaytardıqlarına görə polisə minnətdarlığını bildirir.

**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının təqaüddə olan polis zabiti, beynəlxalq müşahidəçi kimi bütün dünyada təlimlər keçirən Peter Bryant** insan alverinə qarşı həyata keçirilən peşəkar tədbirləri yüksək qiymətləndirir.

**İran İslam Respublikasının vətəndaşı Mosle Əli** Nəsimi RPİ əməkdaşlarının ona göstərdikləri köməyə və baş vermiş oğurluq hadisəsinin tez bir zamanda açılmasında göstərdikləri peşəkarlığa görə təşəkkürünü bildirir.

*A.Tahirova, polis leytenantı*

---

# BÖYÜK QAYIDIŞIN ASTANASINDA...

**Bu gün düşmən tapdağı altında olan Şuşamız, Xankəndimiz, Laçınımız, Ağdamımız, Füzulimiz, Qubadlımız, Zəngilanımız və Cəbrayılımız, bir sözlə, hər şəhər, hər kənd, hər qəsəbə ürəyimizin bir parçasıdır.**

**Azərbaycanın qədim yurd yerlərindən olan Füzuli rayonunun Ermənistan tərəfindən işğalından 25 il ötür.**



1993-cü il avqustun 23-də erməni hərbi birləşmələri Füzuli şəhəri, Horadiz qəsəbəsi və rayonun 82 kəndini işğal edib, insanları doğma yurd-yuvasından didərgin saldılar. İşğal olunmuş yaşayış məntəqələri erməni quldurları tərəfindən talan edilib dağıdıldı.

Müharibə zamanı rayon sakinlərindən 657 nəfəri şəhid oldu, 181 nəfər itkin düşdü, 1341 nəfər sağlamlığını itirdi. Torpaqlarımızın müdafiəsi uğrunda fədakarlıq göstərmiş füzulililərdən 6 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.



Füzuli rayonu tarix və memarlıq abidələri ilə zəngin idi. Memarlıq abidələrindən XIII əsr Əhmədalılar türbəsi, XIII əsr Babi türbəsi, Aşağı Veysəlli məscidi, Qarğabazar kəndində XVII əsr Hacı Qiyasəddin məscidi, XVII əsr Karvansaray, XVIII əsr türbə, Qoçəhmədli kəndində XVIII əsr məscidi və s. vardı. Vardı, ona görə deyirik ki, vandallar onları da məhv ediblər…

Füzuli rayonu mağara və kurqanlar, çoxlu sayda türbə, qəbirüstü abidələr, at, qoç fiqurları, körpülərlə də zəngin idi.

1994-cü ilin yanvarında rayonun 22 yaşayış məntəqəsi ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında işğaldan azad olundu.

Cəbrayıl rayonunun da Ermənistan tərəfindən işğalından da 25 il ötür. Erməni işğalçıları ilə döyüşlərdə 180 nəfər həlak olub. Həmin günlərdə 14 polis, 60 mülki şəxs dünyasını dəyişib, 90 nəfər əsir götürülüb və itkin düşüb. Cəbrayıllıların 180 nəfəri əlil statusu alıb.

Ərazisi 1050 kvadratkilometr olan Cəbrayılın 72 ümumtəhsil məktəbi, 8 xəstəxanası, 5 məscidi, 2 muzeyi, 129 tarixi abidəsi, 149 mədəniyyət ocağı işğal olunub.

Cəbrayıldan olan 61100 məcburi köçkün 58 rayonda, daha çox isə Beyləqan, İmişli, Sabirabad, Biləsuvar rayonlarında məskunlaşıb.

Zəngin yeraltı sərvətlərə və təbii gözəlliyə malik Cəbrayıl rayonunda bir çox faydalı yataqlar, hələ istismar olunmayan mədənlər, karxanalar vardı.

Rayonda 1600 il yaşı olan çinarlar da düşmən azğınlığına qurban oldu. Bu faktı da deyək ki, təkcə 2006-2007-ci illər ərzində erməni işğalçıları tərəfindən rayonun 16 min hektardan artıq ərazisində yanğınlar törədilib.

2016-cı ildə tarixi aprel zəfərimiz nəticəsində Cocuq Mərcanlı kəndində yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan ordusu tərəfindən işğaldan azad edildi. Bu, böyük qayıdışın başlanğıcıdır.

*Ruhiyyə Əliyeva, polis leytenantı*

---

# "AXI, SİZ BİLMİRSİNİZ..."

**Gecədən xeyli keçməsinə baxmayaraq, polis sahə məntəqəsində sahə inspektoru, polis kapitanı Sarvan Səfərovun işığı hələ də yanırdı. Bu rayona təyinat aldığı gündən çox hadisələrin şahidi olmuşdu. Amma səhərki hadisə...**

Səhər tezdən parkı süpürməyə gələn Sənəmin "Ay Allah, burda adam öldürüblər, yetişin!" deməsi qəfil açılan güllə kimi quşların səsini yarımçıq kəsdi. Bəlkə də birinci dəfə eşitdikləri bu ünvansız insan səsindən qorxan küçə itləri də canlarını dişinə tutub qaçdılar. Ərazidə xidmət aparan polislər qaranəfəs səs gələn tərəfə tələsdilər. Hədəqədən çıxmış gözləri polietilen torbanın içində yarımçıq doğulmuş körpəyə dikilən Sənəm arvadı onlar güclə sakitləşdirə bildilər.



Polislərdən biri tez polis sahə inspektoruna-Sarvan Səfərova baş verən hadisə ilə bağlı məlumat verdi. Üstündən beş dəqiqə keçməmiş hadisə yerinə gəldi.

O, süpürgəçi Sənəmin qara-pörəcil olduğunu bilirdi. Baş verən bu hadisədən sonra ərazidə yaşayan bəzi qadınların bir müddət qeybət qırmaq, müzakirə aparmaq üçün artıq mövzuları vardı...

Özünə gələn Sənəm handan-hana dilləndi: "Hava alaqaranlıq olduğundan üzünü uzaqdan yaxşı görə bilmədim. Uzunboylu bir gəlin idi. Hiss etdim ki, kolların arasında zarıyır. Sözün düzü, narkoman-zad olar, deyib yaxınlaşmağa qorxdum. Buraları süpürsəm də bir qulağım ondaydı. Birdən onun "Allah sənə lənət eləsin, körpəmə niyə qıydın..." zarıltıya oxşar, hıçqırıqlı səsini eşitdim. Allahdan olan kimi, başqa vaxt park səhər tezdən idmana gələnlərlə dolu olur. Tərslikdən bir nəfər belə gözə dəymirdi. Hava işıqlandıqdan sonra qorxa-qorxa bura yaxınlaşdım və gördüm ki...

Hadisə yerinə gələn əməliyyat-istintaq qrupu ətrafı bir daha gözdən keçirdilər. Maddi sübut kimi başqa bir əşyaya, dəlilə rast gəlmədilər. Polietilen torbadakını ehmalca götürüb Rayon Polis İdarəsinə gətirdilər. Hadisə ilə bağlı rəisə məruzə olunduqdan sonra prokurorluğa məlumat verildi, cinayət işi açıldı.

Hadisə baş verən ərazinin polis sahə inspektoru kimi yenə də əsas iş onun üzərinə düşürdü. Qeyd dəftərində ərazidə yaşayan və ya kirayədə qalan münaqişəli ailələri, şübhə çəkən qadınları bir-bir xəyalından keçirdi. İlkin ehtimal ediləcək bir fikir belə söyləməkdə çətinlik çəkirdi...

Səhər tezdən bir zamanlar sahə inspektoru işləmiş polis veteranı Paşa kişinin qaranəfəs məntəqəyə gəlməsi xeyir xəbərə oxşamırdı: "Oğul, mən neçə illər burda xidmət aparmışam, buranı ovuc içim kimi tanıyıram. Sənin işin, fəaliyyətin hər birimizin gözü qabağındadır, qonşular, ərazidə yaşayan sakinlər də səndən razılıqlarını bildirirlər. Bu öz yerində, gəlişimin məqsədi başqadır. Bəri başdan deyim ki, sən kirayədə yaşayan şəxsləri dəftərinə qeyd elə. İşdi, bilmək olmaz..."

Paşa kişi sözlü adama oxşayırdı və Sarvan bunu göydə tutdu:

-Ağsaqqal, nəsə olub?

-Bizim qonşuluqdakı həyətdə kirayədə qalan gənc ailəni tanıyırsanmı?

-Əlbəttə, tanıyıram. Oğlanın adı Şərifdi. Maklerlik edir. Nə olub ki, yoxsa onlardan şikayət var?

-Yox, narazılıq, şikayət yoxdur. Amma bu gün o başdan qəribə bir hadisənin şahidi oldum. Bilirsən də, mən astmayam, havanın da belə isti olması məni lap sıxır. Uşaqlar xəstəliyimin ağırlaşmasından qorxub kondisioneri də işlətmirlər. Həyətdəki ağacın altında oturmuşdum. Birdən Şərəfgil yaşayan evdə nəyinsə yerə dəyib çiliklndiyini duydum. Evdən dava-dalaş səsi gəlirdi. Fikirləşdim ki, gənc ailədi, belə söz-söhbətlər çox olar. Onda gördüm ki, Şərif həyətə çıxdı, tələsik də otağa qayıtdı. İçəridən zarıltıya oxşar səs gəlirdi. Birdən yadıma düşdü, bizim arvad deyirdi ki, o gəlin neçə ildən sonra hamilə qalıb. Qapı açıldı və Şərifin yoldaşı ağlaya-ağlaya parka tərəf qaçdı. Sonra nə oldu, bilmədim...

Sarvan Şərifi yaxşı tanıyırdı. Hətta bir-iki dəfə ona içki ilə bağlı xəbərdarlıq da etmişdi. Görünür, bu xəbərdarlıqlar, söhbətlər təsirsiz olmuşdu. İndi isə, o, qanun qarşısında cavab verəcəkdi...

Arvadını gələcək körpəsinin vaxtsız doğulmasına səbəb olacaq qədər belə ağır şəkildə döyməsinin səbəbini isə məhkəmə zalında hamı eşidəcəkdi…

**Ardı 4-cü səhifədə.**

---

**Qurban bayramı İslam aləminin ən müqəddəs bayramlarından biridir. Bütün müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da təmtəraqla qeyd olunan bu bayram bizə müqəddəslərdən yadigar qalıb.**

Hz.İbrahim bu dünyada ən çox sevdiyi yeganə oğlu ilə imtahan olunur və Allah yolunda ondan da keçməyə hazır olduğunu nümayiş etdirir. O, bununla biz müsəlmanlara möhtəşəm bir dərs verib. Bu dərs- Allahın əmri olan yerdə bu dünyaya bağlı hər bir şeydən, nə qədər dəyərli olursa-olsun, vaz keçməyə hazır olmaq dərsidir. Bu dərs imtahanın heç bir zaman qurtarmaması dərsi və Allaha ən ali yaxınlıq Günü dərsidir.

Bu bayramın islamda xüsusi əhəmiyyəti var. Onun əsasında Allaha sonsuz sevgi, onun qüdrətinə dərin inam və iman işığı durur. İnsanları halallığa, paklığa səsləyən bu bayram hamıya saflıq, təmizlik gətirir.

Qurban bayramının əsas mahiyyətində Allah yolunda kəsilmiş qurbanlıq heyvanın ətini Allahın imkansız bəndələri ilə bölüşmək, onları sevindirmək, orucluqda olduğu kimi, xeyirxahlıq, paklıq, Allaha inam və sevgi durur.

# İSLAM ALƏMİNİN MÜQƏDDƏS BAYRAMI

Qurbanlığın ən gözəl xüsusiyyətlərindən biri də odur ki, burada din, məzhəb ayrı-seçkiliyinə yol verilmir. Bu bayramda istənilən dindən olan yetimin, kimsəsiz və yoxsulun haqqı var ki, varlının imkanlarından bəhrələnsin, adi günlərdə yeyə bilmədiyi qurbanlıq ətindən dadsın. Qurbanlıq o deməkdir ki, imkanlı və imanlı insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər.

"Qurban" ərəbcə "qürb"- "yaxınlıq" sözünün ən yüksək məqamıdır və "(Allaha) ən yüksək dərəcədə yaxın durmaq" mənasını verir.

Bayram günü məscidlərdə xüsusi bayram namazı qılınır, niyyəti olanlar heyvanlar kəsib qohumlara, qonşulara, ehtiyacı olan insanlara paylayır. Eyni zamanda, bayramdakı istirahət günlərindən istifadə edib qohumların görüşünə, yaxınlarının qəbirlərinin ziyarətinə gedir, onların xatirəsini yad etmək üçün evlərdə və qəbirstanlıqlarda dualar oxunur, ehsanlar verilir.

Qurban bayramı təkcə Allah yolunda heyvan kəsmək deyil. Qurban bayramı Allah yolunda insanın ən çox istədiyi arzusundan, istəyindən, dəyərindən, nemətindən keçə bilməsi, onu qurban verməyə hazır olmasının simvoludur.

*T.Aytən*

---

# "KOSMOS POLİSİ"nin fəaliyyət dairəsi genişlənir

**Beynəlxalq Elmi Şuranın nəzdində yaradılan Kosmik Tədqiqatlar Komitəsinin (COSPAR) tərkibində fəaliyyət göstərən "Kosmos polisi" adlı qurumun fəaliyyət dairəsi genişlənir.**

BBC xəbər verir ki, müvafiq qurumun səyləri nəticəsində kosmik tədqiqatlar zamanı "planetar karantin" məfhumu meydana gəlib. Bu karantinə əməl olunması qaydalarına nəzarəti "Kosmos polisi" həyata keçirir.

"Kosmos polisi" Yerdə olan canlı həyat nümunələrinin digər planetlərə köçürülməsi prosesinin ehtimal olunan texnogen fəsadlarını araşdıracaq.

COSPAR-ın planetar mühafizə üzrə ekspert qrupunun rəhbəri Afina Kustenis qorunması vacib olan planetlərin adlarını və gələcək kosmik səfərlərə insandan əvvəl robot göndərilməsinin səbəbini də açıqlayıb. Onun sözlərinə görə, Marsa göndəriləcək kosmik gəmilər bu planetdə həyat əlamətlərini aşkar etməyə çalışacaq. Marsroverlər iki metr dərinlikdə qazmaq üçün avadanlıqla təchiz olunacaq. Məhz bu dərinlikdə aşkar olunan üzvi maddələrin güclü radioaktiv təsirinin Yerə qayıdan kosmik aparatda izləri ola bilər. Elə bu halda "Kosmos polisi"nin xidmətindən istifadə olunacaq.

Bundan başqa, COSPAR-ın fəaliyyəti nəticəsində yeni kosmik kəşflər meydana çıxır. Məsələn, "Kassini" planetlərarası zondu Saturnun peykində su aşkar edib və bu tapıntı dərhal planetar mühafizə siyahısına əlavə edilib.

Yerdəki həyatın başqa planetlərə köçürülməsinin mənfi nəticələrindən bəhs edən Kustenis bildirib ki, bu amil başqa planetlərdə olan həyat əlamətlərini məhv edə bilər. "Digər planetlərdə tapılan üzvi maddələrin tədqiqat məqsədilə Yerə gətirilməsi bizim planetin və həyatımızın təhlükəsizliyi üçün problemlər yarada bilər. Ümumiyyətlə, alimlər güman edirlər ki, başqa planetlərdə aşkar ediləcək həyat bəsit və intellektdən uzaq olacaq", - deyə COSPAR-ın rəhbəri fikrini yekunlaşdırıb.

# "AXI, SİZ BİLMİRSİNİZ..."

*Əvvəli 3-cü səhifədə.*

Sən demə, yoldaşı da ona içkidən əl çəkməyi, beş-on manat pul yığıb özlərinə ev, torpaq almağı, övladlarını kirayədə dünyaya gətirməməyi deyirmiş. Axırı isə...

Polis kapitanı Sarvan Səfərov daha bir faktın üstünün vaxtında açılmasından məmnun olsa da, əslində, içində bir sıxıntı vardı. Görəsən, belə olmaya bilərdimi, görəsən gənc ailənin probleminə həm o, həm qonşular, qohumlar daha ciddi təpki göstərsəydilər, sonuc yenəmi belə olacaqdı?!



...Süpürgəçi Sənəmin səsi aləmi başına götürmüşdü: "O, ana deyil, kim bilir, hansı küçə qadınıdır. Görəsən, bu körpəni kimdən, hansı tanımadığı, bilmədiyi kişidən peydahlayıb."

Sənəm sanki böyük bir izdiham qarşısında nitq söyləyirmiş kimi əl-qol ata-ata danışdıqca tum satan Fatma qarı ilə bir neçə arvad da onun dediklərini başları ilə təsdiqləyirdilər...

Ətrafa göz gəzdirib qorxa-qorxa onlara yaxınlaşdı. Güclə "Nə olub",- demişdi ki, süpürgəçi Sənəm yenidən qızışdı. Birdən yaxınlıqdakı oyun attraksionlarını işlədən Ələddin kişinin hirslə: "Ay arvad, gün-günorta oldu, bəsdi danışdın, bir azdan camaat bura istirahətə gələcək, əlli tərpən, işini gör, buraların zibilini süpür", deməsinə bənd imiş kimi hamı dağılışdı. Ortada süpürgəçi Sənəmlə o qaldı. Bir xeyli biri-birinə baxdılar. Sənəm arvada elə gəldi ki, onu haradasa görüb, amma yadına sala bilmədi.

Buza dönmüş, ağrıdan qıvrılan bədəninin keyi açıldıqca düz Sənəmin gözünün içinə baxıb boğula-boğula dilləndi: "Axı, siz bilmirsiniz, axı siz bilmirsiniz"...

Sənəm arvad tutulmuşdu. Qarşısındakının "axı siz bilmirsiniz" fikrini xəyalında çək-çevir eləyənə kimi o naməlum, tanımadığı, qarasınca danışdığı qadın bir anın içində sanki qeybə çəkilmişdi...

Axşam düşüb, qaranlıq qarışsa da parkdan əl-ayaq çəkilməmişdi. Səs-küy, musiqi səsi aləmi başına götürmüşdü. Süpürgəsini çiynində yelləyə-yelləyə evə qayıdan Sənəmin yan-yörəsinə baxıb qorxa-qorxa: "Elə bil onun uşağıdı",-deyib donquldaması aydınca eşidilirdi...

*Hafiz Təmirov, polis mayoru*

# ABDUL FİKRƏT OĞLU ZƏRGƏRLİ



**Respublikanın daxili işlər orqanlarına ağır itki üz verib. Daxili İşlər Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi, polis polkovniki Abdul Fikrət oğlu Zərgərli bu il avqustun 19-da 51 yaşında qəflətən vəfat edib.**

**Abdul Zərgərli 1967-ci il noyabrın 1-də Bakı şəhərində anadan olub. O, 1991-ci ildə Azərbaycan Dillər Universitetini, 2013-cü ildə DİN-in Polis Akademiyasını bitirib.**

**1997-ci ildə Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun Tərcümə qrupunun inspektoru kimi daxili işlər orqanlarında xidmətə başlayan Abdul Zərgərli həmin qurumda baş inspektor, 2005-ci ildən isə Beynəlxalq Əməkdaşlıq İdarəsində baş inspektor və şöbə rəisi vəzifələrində çalışıb.**

**İşgüzarlığı, yüksək intellektual səviyyəsi və idarəçilik qabiliyyəti nəzərə alınaraq, Abdul Zərgərli 2009-cu ildə nazirliyin Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi vəzifəsinə təyin olunub. Bu struktur quruma rəhbərlik etdiyi müddətdə o, nazirliyin beynəlxalq əlaqələrinin genişləndirilməsində və daha da inkişaf etdirilməsində, dünyanın bir sıra ölkələrinin anoloji qurumları arasında uğurlu əməkdaşlığı təmin edən normativ hüquqi bazanın yaradılmasında fəal iştirak edib. Cinayətkarlığa, onun transmilli mütəşəkkil növlərinə qarşı mübarizənin aktual problemlərinə dair çoxsaylı beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkilində və keçirilməsində, qarşıya qoyulan mühüm vəzifələrin həllində böyük əməyi, təşkilatçılıq bacarığı ilə seçilib.**

**Polis polkovniki Abdul Zərgərlinin daxili işlər orqanlarında səmərəli fəaliyyəti həmişə lazımınca qiymətləndirilib. Cinayətkarlığa qarşı mübarizə və ictimai asayişin qorunmasında, xidməti vəzifələrin və xüsusi tapşırıqların yerinə yetirilməsində fərqləndiyinə görə o, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub, habelə Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən dəfələrlə mükafatlandırılıb.**

**Peşəkar polis zabiti, səmimi, xeyirxah və ziyalı insan Abdul Fikrət oğlu Zərgərlinin əziz xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.**

**Ramil Usubov, Vilayət Eyvazov, Oruc Zalov, İsmət Əliyev, Şahin Məmmədov, Fazil Quliyev, Fazil Ələkbərov, Arzu Daşdəmirov, Yaşar Əliyev, Həzi Aslanov, Mirqafar Seyidov, Rafiq Abbasov, Rahib Qarayev, Ehsan Zahidov**


# "XƏZRİ" sizi gözləyir!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun 2018-ci il tarixdən 15 sentyabr 2018-ci il tarixədək mövsüm üzrə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd: 1.** "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

**2.** Bir günlük xərc tək polis əməkdaşı üçün 28.75 manat (iki nəfərlik nömrəni tək tutduqda 42.50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 86,36 manat, özü və 5-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 72,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 115 manat və onlarla birgə 5-12 yaşadək uşağa əlavə yer verildikdə 145 manat təşkil edir.

**3.** Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

**4**. 3-5 yaşda uşaqların qalması ödənişsizdir.

**5.** Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, trenajorlardan, akvaparkdan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metrostansiyasından 171 nömrəli avtobus gəlir.

**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**1 iyun 2018-ci il - 15 sentyabr 2018-ci il**
**(2 nəfərlik standart otağın qiyməti : iki nəfər qaldıqda 230 manat, bir nəfər tək qaldıqda 170 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 28,75 | 42,50 |
| Onun ailə üzvü (50% güzəştlə) | 57,50 | 85,00 |
| Polis əməkdaşı ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 115 | 170 |
| Valideyni ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 | |


# HİKMƏT XƏZİNƏSİNDƏN

◆Dildə aydınlıq düşüncə aydınlığının nəticəsidir. Aydın düşüncə isə labüd olaraq aydın bir forma meydana gətirir.

**Libknext**

◆Dil nə qədər açıq, sadə olsa, bir o qədər gözəl, göyçək və məqbul olar.

***F.Köçərli***

◆İnsanın şərəfinin bir dəlili də nitqdir. Lazımdır ki, hər kəs elə danışsın, elə yazsın ki, onu mümkün mərtəbədə avam da başa düşsün... Həqiqət, qəzet camaat üçündür, camaat qəzet üçün deyil.

***Zərdabi***

◆Sözlərdə ehtiyatlı olmaq gözəl danışmaqdan vacibdir.

***Bekon***

◆Ədalət heç kəsə zülm etməməyə deyilmir. Ona deyilir ki, hamı ilə insafla rəftar edəsən. O yerdə ki, insaf yoxdur, deməli, insanlıq da yoxdur.

***Tusi***

◆Ən təhlükəli yalan azacıq təhrif edilmiş həqiqətdir.

***Lixtenberq***

◆Pis müəllim həqiqəti təqdim edir, yaxşısı isə onu tapmağı öyrədir.

***A.Disterverq***

◆Namərdə əl tutmaq, zalıma kömək eləmək mərdlərə və məzlumlara zülm eləməyə bərabərdir.

***Fəxri Gürgani***

◆Vicdan narahatlığı həmişə iynələr üstündə yaşamaq deməkdir.

***Balzak***

◆Sən inandırıcı danışsözlər və təsir özü-özlüyündə dinləyicilərə çatacaq.

***Höte***

◆Ağlayan adama heç zaman gülməyin. Amma bəzən gülən adamlara ağlayın.

***Nitşe***

◆"Belə eləmə" az deyilməlidir. Göstərmək lazımdır: Bax, belə elə.

***M.Qorki***

◆Bildiyin şeyləri danışma, amma deyib danışdığını həmişə bil.

***Şekspir***

◆Hər ümidsizlikdə bir ümid, hər qaranlıqda bir işıq yaşayır. Yalnız səbir və mətanət lazım.

***H.Cavid***

◆Bəşəriyyətin tərəqqisinə həm də o cəhət mane olur ki, adamlar ağıllı danışanı deyil, yüksək səslə danışanı eşidirlər.

***Şopenhauer***

◆Vaxt qiymətlidir, lakin həqiqət vaxtdan da qiymətlidir.

***B.Dizraeli***

# Avqustun 15-dən 23-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 922 cinayət qeydə alınmış, onların 183-ü «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 61 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 205 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 6 nəfər, borclu şəxs qismində axtarışda olan 93 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 39 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 12 nəfər ölmüş, 61 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 74 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 250 nəfər saxlanılmışdır.

Baş Dövlət Yol Polisi İdarəsinin rəisi Ramiz Zeynalov və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin rəisi Nüsrət Şirinov və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Əlahiddə Çevik Polis Alayının komandiri Zaur Abdullayev və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Baş İstintaq və Təhqiqat İdarəsinin rəisi Emil Usubov və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Polis Akademiyasının rəisi Nazim Əliyev və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi Elçin Həsənov və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN Katibliyinin rəisi Səfər Əliyev və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

İnterpolun Milli Mərkəzi Bürosunun rəisi Mehman Təhməzov və şəxsi heyəti iş yoldaşları Kərimbəy Zərgərliyə atası

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəqliyyatda Baş Polis İdarəsinin rəisi Emin Şəkinski və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi Heydər Heydərov və şəxsi heyəti iş yoldaşları Alim Əliyevə həyat yoldaşı

**İLHANƏ xanımın**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanov və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Səxavəddin Abdullayev və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN Tibb İdarəsinin rəisi Mahmud Yusifov və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Növbətçi Hissələri İdarəetmə Xidmətini rəisi Fuad Bəxtiyarov və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİO-nun Maddi-Texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondunun icraçı direktoru Sadiq Gözəlov

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Alim Əliyevə həyat yoldaşı

**İLHANƏ xanımın**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN A.N Heydərov adına Respublika Hospitalının rəisi İsbi Babaxanov və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN-in 1 nömrəli Poliklinikasının rəisi Səadət Həsənova və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

«Xəzri» İstirahət və Sağlamlıq Mərkəzinin rəisi Rişad Qasımov və şəxsi heyəti

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN Veteranlar Şurasının sədri Fərhad Süleymanov və Şuranın üzvləri

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

DİN Beynəlxalq Əməkdaşlıq İdarəsinin şəxsi heyəti İdarə rəisi

**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Həmzə Zahidov, Neman Şirinov, Tələt Zahidov, Vaqif Quliyev Alim Əliyevə həyat yoldaşı

**İLHANƏ xanımın**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

Redaktor CAVİD XASPOLADOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.279

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 17:00